

*Qismət İBRAHİM*
*Füzuli rayonu,*
*Gecəgözlü kəndi*

# İllərlə itirib, anla gəzdiyim, Qarabağ həsrətim göyərmir, Allah.

## KÖÇKÜN QARDAŞIM

Dərdimiz ağırdı, səbrimiz uzun,
Qoruya bilmədik talandı ellər.
Fələk güldürdükcə düşmənin üzün -
Aşkarca odlara qalandı ellər.

Gözləyə-gözləyə baxıb görmüşük
Tikanlar göyərdib yol-irizimiz...
Tonqal tək gör necə yanıb-sönmüşük -
Səbrdə sonuncu olub yerimiz...

İllər ötüb gedib, yurd girovluqda
Düşmən tülkü kimi torpaq sovurur...
İzlərim göynəyən o viranlıqda -
Qəlbimi yarpaq tək, həsrət qovurur.

Biz xəyal qururuq Qarabağ adlı
Sağlıqlar deyirik, bitib-tükənmir.
Hələki köməyə nə bir Ağ atlı -
Nə də güvəndiyim,bir kimsə gəlmir...

Səngəri qayalar olan Şuşanı
Xəyanət qurbanı  etmişik gedib...
Başımızın tacı olan Qalanı -
Sahibsiz biz qoyub getmişik, gedib...

Laçını  tərk edib çıxıb gələndə
Ruhunu incitdik Soltan bəyin də!
Bir anlıq unudub deyib, güləndə -
Töhmətin çəkirəm yerin, göyün də!

Düşmən caynağına keçdi bir anda
Zirvəsi qartallı Laçın, Kəlbəcər...
Xocalı köməksiz alovlananda -
Şuşanın qəlbinə sancıldı xəncər.

Yurd dərdim çox ağır, yarası dərin,
Sapı özümüzün, balta düşmənin,
Görə bilməyirik, səhvlərimizi,
Düşmən talan edir sərvətimizi.

Kin-küdrət, ədavət qurbanı oldu,
Dağıldı dağlarım, tarımar oldu.
Naşı başbilənin, başı üzündən,
Ağdam köçkün düşdü, dərbədər oldu.

Topxana   harayı  kar qulaqların
Döydü pəncərəsin, döydü qapısın...

İçib doymadığım buz bulaqların -
İndi əsir alıb düşmən hamısın.

Qubadlı, Zəngilan sərhəd boyunca
Dözdü hücumlara axıra qədər.
İndi bu ellərin həsrət yükünü -
Bərgüşad, nə də ki, Həkəri çəkər.

Cəbrayıl sığınıb o xan çinara
Allahdan diləyir daha köməyi.
Araza boylanıb baxan çinara -
Tale nəsib edib yurdda ölməyi!

Girov Füzulinin bağrı yanıbdı
Quruçay, Köndələn güllələnibdi.
Əlim uzanıqlı , Allah, qalıbdı -
Bu yurdun üstünə od ələnibdi.

Çox pis zamanədə dünyaya gəldim,
Düşmən tələsinə, bir-başa girdim,
Yurdumun qədrini, köçəndə bildim,
Bu dərdi bölməyə, yoxdur heç kimim.

Düşünə bilmirəm mən bu itgini
Nə qəlbimə sığır, nə də başıma.
Oyunlar altına qurub fitlini -
Namərdlər su qatıb isti aşıma.

Arxalı köpəklər tula payına
Hürüb üstümüzə cumaraq qəfil...
Qalxıb çatmalıyıq yurdun hayına -
Biz ola bilmərik ömürlük səfil!

Bu torpaq bizimdir, ay Qarabağlım,
Bu torpaq üstündə, böyümüşük biz.
Düşmən tapdaq edən sənin torpağın
Səni gözləməkdən həsrət qalıbdır.

Dinlə sözlərimi, köçkün qardaşım
Ağlamaq, sızlamaq zamanı keçib.
Düşmənin daş üstə qoymayaq daşın -
Tarix bunun üçün bizləri seçib!

Qarabağ yurduna sahib çıxmasaq,
Dilimiz hər yerdə gödək olacaq.
Qaçqın ləqəbini  daşıyaraq biz.
Yad eldə, obada qalacağaıq biz,

Əgər fəryadıma  Sən səs verməsən,
Gələcək nəslimiz yurdsuz qalacaq,
Düşmən girovunda qalan Qarabağ
Səni də, məni də, bağışlamayacaq.

Eşit sözlərimi köçkün qaradaşım,
Gəl qalxaq sarılaq bayrağımıza,
Hayına yetişək xarı bülbülün...
Şəhid ruhlarına, torpağımızda -
Qovuşub, gözünü silək bu elin!

## KÖÇKÜN SAYILDIM

Gənclik illərimi yada salanda
Arxada ağrılı illər görünür...
Nisgilli qəlbimi sıxan talan da -
Dərd kimi, izimlə gəlir, sürünür.

Qədrin bilmədiyim o gün, o saat,
Nə də ki, didərgin sevgim qayıtmır.
Dağdan ağır olan köçkün həyatım -
Hələ də bu yatmış bəxtim ayılmır.

Heç nə geri dönmür - ay da, illər də,
Gözümün ağına yollar xal salır.
Mənim Qarabağsız köçənlərim də -
Mənim iç dünyamı özümdən alır...

İllərlə itirib, anla gəzdiyim,
Qarabağ həsrətim göyərmir, Allah.
Onsuz anlarımdı sapa düzdüyüm -
Ürəyim yoxluğa öyrənmir, Allah.

Köçkün ünvanımın soyuq üzünü
Həsrət uzandıqca, daha çox duydum...
Vətəndə vətənsiz olmaq sözünü -
Xəncər tək götürüb , qəlbimi soydum!

## ƏSİR DÜŞMÜŞ VƏTƏNİM

Bulaqlarının  novu  göz yaşıyla dolubdur,
Kəhrizinin suyu quruyub,  sovrulubdur.
Bərəkətli düzlərin susundan qovrulubdur,
Çaylarının gur seli inciyib, bulanıbdır.

Bəsdir gözlədik möhlət ATƏT-dən, BMT-dən,
Silahlara sarılıb haray çəkək ürəkdən.
Mərmiləri yağdıraq yağı düşmən başına,
Millət kimi dərs verək erməni aşnasına.

Başımıza  bitməyən  oyunlar  gətirənlər
Arxalı  olduqların pərdələyir, gizləyir!
Zaman bizi gözləmir, döyüş bizi gözləyir,
Şəhid qanı tökülən torpaq bizi gözləyir.

Qarabağ vətənimdi, dünya bilir əzəldən,
Yağı düşməni qovaq əsir düşmüş vətəndən.
Baxaq ulu torpağa şəhidlik zirvəsindən,
Qaçqın, köçkün adını götürək üstümüzdən.

Ədalət 2019.- 25 aprel.- S.7.